KREDO
№ 22 (1278) 21 iyun 2025-ci il



# RAMİZ DUYĞUN VƏFAT ETDİ

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin keçmiş sabiq rəisi polkovnik, şair publisist Ramiz Duyğun dünyasını dəyişib. Polkovnik uzun sürən xəstəlikdən sonra 87 yaşında vəfat edib.

Xatırladaq ki, Ramiz Duyğun (Məlikov) 1938-ci il fevralın 10-da Azərbaycanın Əli Bayramlı (indiki Şirvan) rayonundakı Güdəcühur kəndində anadan olub.

N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Şimali Qafqaz hərbi dairəsində müəyyən kurs keçdikdən sonra Belorusiya hərbi dairəsində (1962-1971), sonra Zaqafqaziya hərbi dairəsində (1971-1978) xidmət edib. N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun xüsusi hazırlıq kafedrasında müəllim (1978-1985), şöbə rəisi (1985-1990) işləyib.

Ehtiyatda olan tibb xidməti polkovnik, "Hünər" televiziya verilişinin müəlliflərindən biri və aparıcısı idi.

Ramiz Duyğunun "Vətən kimi şirin", "Vətən beşiyim mənim", "Göy üzü damar-damar" kimi şeir kitablarının müəllifidir.

Allah rəhmət eləsin!

*Bizim.Media*